CASPIAN agro week

19-cu Azərbaycan Beynəlxalq

# KƏND TƏSƏRRÜFATI SƏRGİ VƏ FORUMU

5|6|7|8 MAY 2026

BAKI EKSPO MƏRKƏZİ

# SƏRGİ ÜZRƏ HESABAT



# MÜNDƏRİCAT


Sərgi haqqında 2

Azərbaycan Respublikasının Prezidentinin səfəri 3

Sərginin rəsmi açılış mərasimi 4

VİP qonaqların rəyləri 5

PR kampaniyası və KİV-də işıqlandırma 6

Reklam kampaniyası 7

Sərginin informasiya dəstəyi 8

Ziyarətçilər haqqında 9

Ziyarətçilərin rəyləri 10

İştirakçılar haqqında 11

İştirakçıların rəyləri 12

Sərgi çərçivəsində əlavə tədbirlər 13

Caspian Agro 2027 sərgisi 16

# CASPIAN AGRO WEEK

## KƏND TƏSƏRRÜFATI VƏ QİDA MƏHSULLARI İSTEHSALÇILARINI BİR ARAYA GƏTİRƏN İRİ REGİONAL SƏRGİ VƏ FORUMDUR

Caspian Agro Week aqrar-sənaye kompleksinin liderlərini və regionun müxtəlif ölkələrindən olan qida istehsalçılarını bir araya gətirən genişmiqyaslı sahə tədbiridir. Sərgi Azərbaycanın aqrar-sənaye sektorunda innovasiyaların əsas hərəkətverici qüvvəsi kimi çıxış edir, yerli və xarici aqrar sahə nümayəndələrinə qabaqcıl texnologiyalara çıxış və strateji tərəfdaşlıq imkanları yaradır.










Hər il bu platforma minlərlə peşəkarı – investorları, ixracatçıları, distribütorları və fermerləri bir araya gətirərək, işgüzar əlaqələrin qurulması, təcrübə mübadiləsi və iri müqavilələrin bağlanması üçün unikal ekosistem formalaşdırır.

**"CASPİAN AGRO WEEK" KƏND TƏSƏRRÜFATI SAHƏSİNDƏ YENİ BAZARLARA, İNNOVASİYALARA VƏ STRATEJİ ƏMƏKDAŞLIQLARA AÇILAN QAPIDIR.**



# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ VƏ BİRİNCİ VİTSE-PREZİDENTİNİN SƏRGİYƏ SƏFƏRİ

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezidenti Mehriban Əliyeva sərgini ziyarət ediblər. Ekspozisiyalarla tanışlıq zamanı onlar Azərbaycanın aqrar potensialını nümayiş etdirən innovativ həllər və məhsullarla tanış olmuş, həmçinin xarici dövlətlərin milli pavilyonlarını və stendlərini ziyarət etmişlər.














# SƏRGİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİ

5 may 2026-cı il tarixində Bakı Ekspo Mərkəzində 19-cu Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisinin rəsmi açılış mərasimi keçirilmişdir.












# VİP QONAQLARIN RƏYLƏRİ



Regionun aparıcı aqrar platformalarından biri kimi mövqeyini möhkəmləndirmiş "Caspian Agro" sərgisi bu il yeni konseptual yanaşma — "Caspian Agro Week" formatında təşkil olunub. Bu yanaşma çərçivəsində sərgi yalnız məhsul və texnologiyaların nümayişi ilə məhdudlaşmır, həmçinin aqrar sektorun müxtəlif istiqamətlərini əhatə edən forumları və ölkədə fəaliyyət göstərən iri ixtisaslaşmış innovativ təsərrüfatlara təşkil olunan səfərləri də özündə birləşdirir. Bu format aqrar ekosistemin bütün iştirakçılarını bir araya gətirərək əməkdaşlıq əlaqələrinin genişləndirilməsi üçün əlverişli imkanlar yaradır.

**Məcnun Məmmədov**
Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri



Qida məhsullarının istehsalı və istehlakı zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən tərəflərin iştirak etdiyi bu beynəlxalq tədbir çərçivəsində qida sahəsində məhsul və xidmətlərin nümayişinin yeni işgüzar əlaqələrin qurulmasına və mövcud əlaqələrin genişləndirilməsinə mühüm töhfə verdiyini hesab edirəm.

**Qoşqar Təhməzli**
Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri



Aqrar və qida sənayesi iştirakçılarını bir araya gətirən bu mötəbər platformalar müvafiq sahələrdə tətbiq olunan ən son yeniliklərin və innovativ həllərin təqdimatı, yeni tərəfdaşlıqların qurulması və biznes imkanlarının genişləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Burada təqdim olunan müasir yanaşmalar kənd təsərrüfatında məhsuldarlığın artırılması, qida sənayesində keyfiyyət standartlarının yüksəldilməsi, resurslardan daha səmərəli istifadə və "yaşıl iqtisadiyyat" prinsiplərinin tətbiqi istiqamətində əldə olunan irəliləyişi əyani şəkildə nümayiş etdirir.

**Orxan Məmmədov**
Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri



Azərbaycanın aqrar-ərzaq sektorunun nailiyyətlərini qeyd edərkən və əməkdaşlığın yeni üfüqlərinə nəzər salarkən, hər birinizə fədakar fəaliyyətinizə görə təşəkkürümü bildirirəm. Caspian Agro Week sadəcə sərgi deyil – bu, öyrənmək, əməkdaşlıq etmək, yaradıcı ideyalar formalaşdırmaq və tərəfdaşlıqlar qurmaq üçün unikal bir məkandır. Burada müzakirə olunan ideyalar gələcək illər üçün ərzaq sistemlərinin inkişaf istiqamətini müəyyənləşdirmək gücünə malikdir.

**Nasar Hayat**
FAO-nun Azərbaycandakı Nümayəndəsi və FAO-nun Azərbaycan üzrə Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri

# PR KAMPANİYASI VƏ KİV-DƏ İŞIQLANDIRMA

## MƏTBUAT KONFRANSI




28 aprel tarixində "JW Marriott Absheron" hotelində regionun kənd təsərrüfatı və qida sənayesi üzrə mühüm və irimiqyaslı tədbirləri – "Caspian Agro Week" – 19-cu Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgi və Forumu və "InterFood Azerbaijan" – 31-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisinə həsr olunmuş mətbuat konfransı keçirilib.

### Mətbuat konfransında aşağıdakılar iştirak ediblər:



**Anar Cəfərov**
Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru



**Sevda Hacıyeva**
Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzində şöbə müdiri



**Fərhad Aşurbəyli**
Azərbaycan Kulinariya Mütəxəssisləri Assosasiyasının İcraçı direktoru



**Bəhruz Hidayətzadə**
"Caspian Event Organiser" şirkətinin icraçı direktoru



**Zarina Məmmədova**
"Caspian Agro Week" sərgisinin layihə rəhbəri

Mətbuat konfransına 22 media qurumundan 35 nəfər qatılmışdır. Təmsil olunan media qurumları arasında TV kanallardan AZTV , İctimai TV , Baku TV, Business TV, Space TV , ARB TV , AGRO TV, REAl TV, xəbər saytları və jurnallardan APA, Azertac, Oxu.az, Trend.az, Report İnformasiya Agentliyi, media.az, Vesti.az,  Mətbuat.az, Anews.az, Baku News, BusinessTime.az, Xəbərlər News, İki Sahil, AzTürkXəbər, BiznesMerkezi.az saytının nümayəndələri mətbuat konfransında iştirak etmişdir.

# REKLAM KAMPANİYASI










## KİV İCMALI

- KÜÇƏ REKLAMI
- BİLBORDLAR
- MONİTORLAR
- POSTERLƏR
- ROLLAPLAR







| | | | |
|---|---|---|---|
| **1,526** | **98** | **121** | **8** |
| XƏBƏR – 219 XƏBƏR PORTALI | MƏQALƏ – 12 QAZET | SÜJET – 8 TV KANAL | YAYIM – 5 RADİO |

İXTİSASLAŞDIRILMIŞ MƏLUMAT BAZASI ÜZRƏ ELEKTRON POÇT VASİTƏSİ İLƏ GÖNDƏRİŞLƏR

TƏRƏFDAŞLARIN, DÖVLƏT STRUKTURLARIN VƏ ASSOSİASİYALARIN MƏLUMAT BAZALARI ÜZRƏ ELEKTRON POÇT VASİTƏSİ İLƏ GÖNDƏRİŞLƏR

MƏLUMATIN İXTİSASLAŞDIRILMIŞ NƏŞRLƏRDƏ, İXTİSASLAŞDIRILMIŞ SAYTLARDA VƏ SOSİAL ŞƏBƏKƏLƏRDƏ YERLƏŞDİRİLMƏSİ

# SPONSORLAR VƏ TƏRƏFDAŞLAR

## TƏŞKİLATİ DƏSTƏK

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi

## TƏŞKİLATÇILAR

ceo caspian event organisers

Iteca Caspian

caspian event management

icaevents

## DƏSTƏK

AQTA – Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi

KOBİA – Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

azpromo – Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi

ASK – Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası

AQİSA – Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyası

FAO – BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı

Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası

## QEYDİYYATIN SPONSORU

LOVOL

## RƏSMİ AVTOMOBİL

İMOTORS THE POWER OF FUTURE

## RƏSMİ BANK

PASHA Bank

## TİBB XİDMƏTLƏRİ ÜZRƏ TƏRƏFDAŞ

Baku Medical Plaza

## RƏSMİ MEBEL TƏRƏFDAŞI

ACCURATE AZ

## REKLAM TƏRƏFDAŞI

bilbord.az

## RƏSMİ MEHMANXANALAR

Marriott Baku Boulevard

Sheraton Baku Intourist

ART Boutique Hotel

Radisson Baku

Courtyard by Marriott Baku

The Merchant Baku

Hilton Garden Inn Baku

ibis

## STEND QURAŞDIRILMASI ÜZRƏ RƏSMİ TƏRƏFDAŞ

AZ EXPO MONTAGE

## RƏSMİ SƏYAHƏT AGENTLİYİ

GREENWICH TRAVEL CLUB

## İNFORMASİYA TƏRƏFDAŞLARI

AZ anewz

AZƏRTAC

AZ TV

1NEWS.AZ

## İNFORMASİYA DƏSTƏYİ

Аграрная ТЕМА

AGRO Azerbaijan – Kənd təsərrüfatı televiziyası

BHB Strategic & Creative Co

Business Time

Caspian Energy Club – Energy for Business

Caspian Media

Park Bulvar Baku

Tarım Türk dergisi

## INTERNET DƏSTƏYİ

abc.az

Аграрный Сектор

apa

azexport.az Made in Azerbaijan

BAKU NEWS

Faktor News

lent.az

ona onlayn xəbər agentliyi

OnWay

POST NEWS

redaksiya

Radio Enerji 101.1FM

Светич www.SvetichI.info АгроМедиаХолдинг

Vision TV Azərbaycan

vesti.az

# CASPIAN AGRO WEEK 2026 ZİYARƏTÇİLƏR

**15646**

**ZİYARƏT SAYI**

**12036**

**UNİKAL ZİYARƏTÇİLƏRİN SAYI**

## VƏZİFƏLƏR ÜZRƏ CASPIAN AGRO WEEK 2026 ZİYARƏTÇİLƏRİ

- Dövlət kənd təsərrüfatı strukturlarının nümayəndələri
- Aqrosənaye kompleksinin mütəxəssisləri
- Kənd təsərrüfatı müəssisələri, heyvandarlıq təsərrüfatları və unüyüdən zavodların sahibləri
- İstixanaların sahibləri
- Balıqçılıq təsərrüfatlarının sahibləri
- Ət-süd və konserv məhsullarının istehsalı üzrə müəssisələrin rəhbər və mütəxəssisləri
- Fermerlər
- Kənd təsərrüfatı məhsullarının distribyutorları
- Mətbuat nümayəndələri
- Diplomatik korpus

Ziyarətçilərin

**93%**

öz səfərini səmərəli hesab edirlər

Ziyarətçilərin

**79%**

satın alma qərarlarını qəbul edir və ya onlara təsir göstərirlər








# ZİYARƏTÇİLƏRİN RƏYLƏRİ



Sərgi çox müsbət təəssürat yaradır. Burada kənd təsərrüfatı məhsullarının bütün spektri təqdim olunur ki, bu da ziyarətçilərə, fermerlərə və iri təsərrüfat sahiblərinə lazım olan hər şeyi tapmağa imkan verir. Şübhəsiz ki, belə sərgilər böyük əhəmiyyət daşıyır. İnsanlar öz sahələrində yeniliklərlə tanış olur, bir-biri ilə ünsiyyət qurur, fikir və təcrübə mübadiləsi aparırlar. Mən də Azərbaycan bazarının təhlili və bu bazara daxilolma imkanları ilə bağlı kifayət qədər məlumat əldə etdim.

**Çağatay Tolunay**
«Gordes Zeolit Co» şirkətinin Baş meneceri

Son 10 il ərzində bu sərginin aqrar sahə üçün böyük əhəmiyyəti olub. Ən vacib məqamlardan biri innovasiyaların tətbiqi, səmərəli və intensiv avadanlıqların, həmçinin fermerlərin ehtiyac duyduğu yeni texnologiyaların təqdim edilməsi və satış imkanlarının yaradılmasıdır. Öz adımızdan Kənd Təsərrüfatı Nazirliyinə və sərgi təşkilatçılarına təşəkkürümüzü bildiririk.

**Arif Bəhramov**
Tərtər rayonu Dövlət Aqrar İnkişaf Mərkəzinin sektor müdiri





Caspian Agro Week sərgisinin ölkəmizin kənd təsərrüfatı və qida sektoru üçün böyük əhəmiyyəti var. Burada həm yerli fermerlər, həm də xarici ölkələrdən gəlmiş iştirakçılar təmsil olunurlar. Təbii ki, bizim fermerlər də bu sərgidən böyük fayda əldə ediblər. Onlar kənd təsərrüfatı sahəsində tətbiq olunan yeni innovativ texnologiyalarla tanış olub, müxtəlif texnikaları izləyiblər. Eyni zamanda, qida məhsullarının istehsalı, müxtəlif şirkətlərin təqdim etdiyi texnologiyalar və heyvandarlıq sahəsindəki yeniliklərlə yaxından tanış olmuş və bundan məmnun qalmışlar.

**Ramin Kərimov**
Qazax rayonu Dövlət Aqrar İnkişaf Mərkəzinin əməkdaşı

Belə iş formatı çox faydalıdır — bunu internet üzərindən aparılan danışıqlar, telefon zəngləri və yazışmalarla müqayisə etmək olmaz. Burada qərarlar birbaşa görüş zamanı qəbul olunur və bu, hər iki tərəf üçün sərfəlidir. Caspian Agro Week uzun illərdir planlarımızı həyata keçirmək üçün bizə bu imkanları yaradan məhz həmin platformadır. Məhsulların geniş çeşidi və iştirakçıların yüksək səviyyəsi sərgini biznesin inkişafı üçün vacib məkana çevirir.

**Zümrüd Həsənova**
Azərbaycanda bir sıra meyvə və tərəvəz istehsalçılarının biznes tərəfdaşı



# CASPIAN AGRO WEEL 2026 İŞTİRAKÇILAR

**298**
ŞİRKƏT

**26**
ÖLKƏ

**12076** $M^2$
SƏRGİ SAHƏSİ



# CASPIAN AGRO WEEK 2026 İŞTİRAKÇI ÖLKƏLƏR

| | | |
|---|---|---|
| ABŞ | HİNDİSTAN | MEKSİKA |
| ALMANİYA | İRAN | NİDERLAND |
| AZƏRBAYCAN | İSPANİYA | POLŞA |
| BELARUS | İSRAİL | RUSİYA |
| BÖYÜK BRİTANİYA | İSVEÇ | ŞRİ-LANKA |
| ÇİN | İTALİYA | TÜRKİYƏ |
| FİNLANDİYA | KOREYA | YAPONİYA |
| FRANSA | QAZAXISTAN | YUNANISTAN |
| GÜRCÜSTAN | LATVİYA | |

# SƏRGİ İŞTİRAKÇILARININ RƏYLƏRİ



Belə sərgilərin keçirilməsi həm müştərilərə daha müasir avadanlıqların təqdim edilməsi, həm də yeni işgüzar əlaqələrin qurulması üçün əla imkan yaradır. Sərginin gedişatından məmnunuq. Məhsullarımız həm yerli, həm də xarici sahibkarlar tərəfindən böyük maraqla qarşılanır. Aparılan fəal danışıqlar bunu bir daha təsdiqləyir. Hesab edirik ki, sərginin nəticəsi olaraq müştəri portfelimizi daha da genişləndirəcəyik.

**Hüseyn İşbilir**

"IBC TARIM SULAMA" şirkətinin sahibi və təsisçisi, Türkiyə

Şirkət üçün Caspian Agro Week sərgisində iştirak bu regionda ilk təcrübədir. Bizim üçün sərgi sadəcə bir vitrin deyil, daha çox müşahidə meydanıdır: bazar necə qurulub, hansı həllərə tələbat var və gələcək imkanlar harada yarana bilər. Bu mənada Caspian Agro Week bizim üçün sadəcə bir sərgidən daha artıq oldu. Bu, texnologiyaların və gələcək layihələrin görüş nöqtəsidir və əminəm ki, biz də burada öz layiqli yerimizi tutacağıq.

**Nikolaos Mantzuranis**

OLIMPIAS SMSA şirkətinin satış meneceri, Yunanıstan





Caspian Agro Week bizim üçün mövcud müştərilərlə uğurlu görüşlər keçirmək və yeni tərəfdaşlarla tanış olmaq üçün əla platformadır. Burada yerli tərəfdaşlarla və qurumlarla münasibətləri davam etdirmək, peşəkar dialoqlar aparmaq çox rahatdır. Sərgi məhsuldar şəkildə davam edir: həm perspektivli yeni əlaqələr qurulub, həm də mövcud tərəfdaşlarla görüşlər keçirilib.

**Georgi Çxartişvili**

UNITEC S.P.A. şirkətinin satış meneceri, İtaliya

# RETAIL CENTRE




Sərgi çərçivəsində ilk dəfə olaraq ticarət şəbəkələrinin görüş mərkəzi – Retail Centre təşkil olunmuşdur. Retail Centre təchizatçılar, istehsalçılar və ticarət şəbəkələrinin satınalma nümayəndələri arasında birbaşa əməkdaşlıq üçün yaradılmış peşəkar B2B platforması və danışıqlar məkanıdır. Tədbirdə 13 ticarət şəbəkəsi iştirak etmişdir. Onların arasında həm yerli, həm də xarici şirkətlər təmsil olunmuşdur: Bravo Supermarket, Bazarstore Supermarket, Rahat Supermarket, Araz Supermarket, Megastore Supermarket, Tamstore, Oba Market, China Market, Galeon Seafood, APlus Supermarket, “LENTA”, Fresh Market LLC, “SAMOKAT”.











# B2B MEETINGS




Sərgi çərçivəsində B2B görüşlər təşkil olunmuşdur. Bu görüşlər eyni anda bir neçə əsas müştəri ilə işgüzar danışıqlar aparmaq üçün əlavə imkanlar yaratmışdır. Görüşlərdə xarici və yerli istehsalçılar, distribütorlar, eləcə də pərakəndə satış şəbəkələrinin nümayəndələri iştirak etmişlər.











# FERMER TURLARI




Sahibkarları yeni texnologiyalarla tanış etmək və təcrübə mübadiləsini təmin etmək məqsədilə hər il sərgi təşkilatçıları tərəfindən Azərbaycanın regionlarından olan fermerlər üçün işgüzar turlar təşkil olunur. Bu il sərgini Azərbaycanın 50-dən çox regionundan sahibkarlar və fermerlər ziyarət etmişlər.












# AXŞAM ZİYAFƏTİ




5 may tarixində sərginin qonaqları və iştirakçıları üçün "Elite Events Hall"da axşam ziyafəti təşkil olunmuşdur.









# BEYNƏLXALQ AQRAR İNNOVASİYA FORUMU







Forum və konfranslar aqrar sektorun beynəlxalq və sahələrarası dialoqunun gücləndirilməsinə, həmçinin innovativ və dayanıqlı inkişafın təşviqinə töhfə vermişdir.

## CASPIAN AGRO WEEK ÇƏRÇİVƏSİNDƏ FORUM VƏ KONFRANSLARIN ƏSAS İSTİQAMƏTLƏRİ

- İqlim, iqtisadi və geosiyasi çağırışlar şəraitində ərzaq təhlükəsizliyi
- Aqro-ərzaq sistemlərinin logistikası, marşrutlar və təchizat zəncirlərinin təhlükəsizliyi
- Süni intellektin tətbiqi və aqrar ekosistemlərin, o cümlədən startapların inkişafı
- Kənd təsərrüfatının rəqəmsallaşdırılması və innovativ texnologiyaların tətbiqi
- Aqrar sektorda dövlət, biznes və təhsil müəssisələri arasında əməkdaşlığın inkişafı
- Yerli istehsalın stimullaşdırılması və bazar imkanlarının genişləndirilməsi
- Kənd təsərrüfatının inkişafında media və ictimai kommunikasiya rolu
- Aqroparkların aqrar biznes üçün yeni platforma kimi inkişafı
- Qadınların kənd təsərrüfatında iştirakının genişləndirilməsi
- Beynəlxalq əməkdaşlıq (afrika-azərbaycan daxil olmaqla)
- Heyvandarlıq, bitkiçilik, quşçuluq, balıqçılıq və baytarlığın inkişafı
- Dayanıqlı kənd təsərrüfatı, emal və əlavə dəyər yaradılması
- Aqrar sahədə dövlət-özəl tərəfdaşlığı
- Aqrar sığorta və risklərin idarə olunması
- Aqrar elm və elmi-praktik əməkdaşlığın inkişafı

Forum aqrar sektorun aktual çağırışlarını və perspektivlərini müzakirə etmək üçün ekspertləri və iştirakçıları bir araya gətirmişdir. **İşgüzar proqram çərçivəsində 98 spiker iştirak etmişdir.**

# GƏLƏN İL KEÇİRİLƏCƏK SƏRGİNİN XÜLASƏSİ

CASPIAN agro week 20 yubiley

20-ci Yubiley Azərbaycan Beynəlxalq

## KƏND TƏSƏRRÜFATI SƏRGİ VƏ FORUMU

19|20|21|22 MAY 2027

BAKI EKSPO MƏRKƏZİ

## SƏRGİNİN ƏSAS BÖLMƏLƏRİ

### İNFRASTRUKTUR VƏ TEXNİKA

- Kənd təsərrüfatı texnikası
- Kənd təsərrüfatı obyektləri
- Kənd təsərrüfatı avadanlıqları
- İstixana
- Suvarma sistemləri
- Laboratoriya avadanlıqları

### BİTKİÇİLİK

- Bitkiçilik
- Meyvə və tərəvəz yetişdirilməsi
- Gülçülük
- Gübrələr
- Aqroekologiya və orqanik kənd təsərrüfatı

### HEYVANDARLIQ VƏ YEMLƏMƏ

- Heyvandarlıq və quşçuluq
- Yem məhsulları
- Baytarlıq
- Balıqçılıq və akvakultura

### EMAL VƏ QABLAŞDIRMA

- Qablaşdırma
- Tullantıların emalı
- Pambıqçılıq və tekstil

### SMART AGRO (RƏQƏMSAL VƏ İNNOVATİV KƏND TƏSƏRRÜFATI)

- Ağıllı kənd
- Əşyaların interneti
- Süni intellekt
- Robototexnika sistemləri
- Pilotsuz uçuş aparatları (dronlar)
- İT xidmətləri
- Startaplar
- Yaşıl aqro

### İNNOVASİYALAR VƏ DAYANIQLI İNKİŞAF

- Kənd təsərrüfatında innovativ texnologiyalar
- Kənd təsərrüfatı landşaftı

### DƏSTƏK VƏ XİDMƏTLƏR

- Logistika
- Aqrosığorta və maliyyə xidmətləri








TƏŞKİLATİ DƏSTƏK

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi

RƏSMİ DƏSTƏK

AQTA – Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi

KOBİA – Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

azpromo – Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi

ASK – Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası

AQİSA – Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyası

FAO – BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı

Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası

CASPIAN agro week

20 yubiley

20-ci Yubiley Azərbaycan Beynəlxalq

# KƏND TƏSƏRRÜFATI SƏRGİ VƏ FORUMU

## 19|20|21|22 MAY 2027

BAKI EKSPO MƏRKƏZİ

TƏŞKİLATÇILAR

ceo caspian event organisers

ITECA CASPIAN

www.caspianagroweek.az

# CaspianAgroWeek

